

# "Bizə bu sevinci yaşadan Ali Baş Komandana minnətdarıq"

***Azərbaycan Silahlı Qüvvələri sentyabrın 27-dən genişmiqyaslı əks-hücuma keçərək Ermənistanın işğal altında saxladığı bir çox yaşayış məntəqələrimizi, strateji yüksəklikləri, o cümlədən, Murovdağ zirvəsini azad etdi. Böyük zəfərlərə imza atan hərbçilərimiz tərəfindən Cəbrayıl, Füzuli rayonlarında üçrəngli Azərbaycan bayrağı ucaldıldı. Daha sonra Ermənistan silahlı birləşmələrinin 1993-cü ildə işğal etdiyi Cəbrayıl rayonunda yerləşən Xudafərin körpüsü düşməndən təmizləndi.***

Dövlətimizin başçısı, Ali Baş Komandan İlham Əliyevin Zəngilan şəhərinin və rayonunun bir neçə kəndinin azad olunduğunu elan etməsi xəbərini də hər bir azərbaycanlı sevinc gözyaşları ilə qarşıladı. Otuz ildən sonra bu şad xəbəri eşidən zəngilanlıların torpaq həsrətli təəssüratlarını oxucularımızla bölüşürük.

***Nazim Dünyamalıyev, Havalı kənd sakini:***

– Cənab Prezident, Ali Baş Komandan İlham Əliyevin Zəngilanın işğaldan azad olunması ilə bağlı xəbəri xalqımıza çatdırdığı anları sözlə ifadə etməkdə çətinlik çəkirəm. Bəlkə də o vaxtadək özümü elə bəxtəvər hiss etməmişdim. Düzdür, sentyabrın 27-dən bu günə kimi, qəsbkarların tapdağı altında olan torpağımızın hər qarışı azad ediləndə böyük sevinc, fərəh hissi keçirirəm. Lakin Zəngilanda doğulduğum, burada gəncliyimi, qayğısız illərimi yaşadığım üçün bu sevinc mənə daha doğma idi. Ordumuzun düşmənə qarşı əks-həmlə əməliyyatı başlayandan, Zəngilanın yağıdan azad olunacağı xəbərini necə intizarla gözlədiyimi, gecə-gündüz qulaqlarımın səsdə olduğunu yaxınlarım, dostlarım yaxşı bilirdilər. Çox şükür, illərlə ürəyimdə daşıdığım arzuma axır ki, qovuşdum. Tezliklə gedib, üzümü o torpağa sürtəcəyəm. Doğma Havalını məhəllə-məhəllə dolaşacağam...

Yeri gəlmişkən, burada bir ağrılı-acılı hadisəni xatırlatmaq istəyirəm. Azərbaycan xalqı çox yaxşı bilir ki, 1988-ci ildən 1994-cü il oktyabrın 29-dək hər bir zəngilanlı bütün çətinliklərə və təhlükələrə baxmayaraq, məkrli, fitnəkar düşmənin hücumlarına mərdliklə sinə gərərək, son ana qədər doğma yurdunu tərk etmək istəməyib. Həmin çətin sınaq günlərində ümummilli lider Heydər Əliyevin səyi, diqqəti və qayğısı nəticəsində İran İslam Respublikasının Prezidenti ilə aparılan danışıqlar nəticəsində Araz çayının suyu azaldılıb və zəngilanlıların bu ölkəyə keçərək təhlükəsizliyi təmin olunub. Həmin məşəqqətli vaxtlarda Zəngilanın yüzlərlə qəhrəman döyüşçüsü və sakini faciəli şəkildə həlak olsa da, minlərlə həmvətənimiz Bakıya pənah gətirib. Zəngilanlılar dövlətimizin diqqət və qayğısı sayəsində yaşayıb işləyərək öz doğma yurd-yuvalarına qayıtmaları gününü səbirsizliklə gözləyirdilər. Həmin gün gəlib çatdı. Bu xoşbəxtliyi bizə yaşatdığına görə, cənab Prezidentimizə, Ali Baş Komandan İlham Əliyevə dərin minnətdarlığımı bildirirəm.

***Rəfiqə Əhmədova, Həkəri kənd sakini:***

– Televizordan cənab Prezidentin kəndimizin işğaldan azad edilməsi xəbərini eşidəndə hönkürdüm, ayaqlarım əsdi... Gözlərim önünə rəhmətlik atam, anam, qayınanam gəldi... Vətən həsrəti ilə köçdülər bu dünyadan. İndi ruhları şaddır.

Bəli, Azərbaycan Ordusu Zəngilanı işğaldan azad etməklə bizə böyük sevinc yaşatdı. Buna görə, möhtərəm Prezidentimizə, Ali Baş Komandana sonsuz təşəkkür edirəm. Sevincimizin həddi-hüdudu yoxdur. Xəbəri göz yaşları ilə qarşıladım. İnşallah digər rayonlarımız da işğaldan azad olunacaq. Biz Azərbaycan Ordusuna inanırıq, Ali Baş Komandana güvənirik.

İndi təsəvvür edin, 27 il sonra uşaqlığımın, yeniyetməliyimin, gəncliyimin keçdiyi torpağa geri qayıdacağam günü necə də həsrətlə, intizarla gözləyirəm. Axı ora– doğma Həkəri Vətənimin bir parçasıdır, bütün xatirələrim o yurdla bağlıdır...

İnşallah, tezliklə öz kəndimizə qayıdacaq, öz ocağımızı yandıracağıq. Biz artıq köçkün deyilik, bu ağır adı daha çiyinlərimizdə daşımırıq. Əminliklə deyirəm, bu sevinci, bu xoşbəxtliyi bizə yaşadan Prezidentimiz tezliklə Kəlbəcər, Şuşa, Xankəndi və digər işğal altındakı ərazilərmizdən olan köçkünlərə də şad xəbər verəcək. O günləri hamımız səbirsizliklə gözləyirik...

***V.BAYRAMOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti 2020.- 23 oktyabr.- S.5.